# Kiyev şəhərində Müslüm Maqomayev adına istirahət parkı və onun abidəsinin açılışı olub







Dahi bəstəkar və müğənninin abidəsinin açılış mərasimində iştirak etmək üçün Kiyev şəhərində səfərdə olan Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Ukraynanın mədəniyyət naziri Yevgeni Nişukla görüşüb. Görüş zamanı xalqlarımız arasındakı tarixi dostluq əlaqələrindən söz açan Əbülfəs Qarayev son 1 ildə Kiyev şəhərində Azərbaycanın Ukraynadakı səfirliyinin, təşəbbüsü ilə Azərbaycan-Ukrayna dostluq parkının açılmasını və Müslüm Maqomayevin abidəsinin ucaldılmasını tarixi hadisə adlandırıb. Bu kimi nəcib hadisələrin ikitərəfli mədəni əlaqələrin inkişafına əsaslı təkan verdiyini vurğulayıb. Rəsmi Kiyevin Azərbaycanla bir çox sahələrlə yanaşı, elmi, mədəni əlaqələrin inkişafına xüsusi önəm verdiyini vurğulayan Ukraynanın mədəniyyət naziri Yevgeni Nişuk Kiyev şəhərinin mərkəzində əfsanəvi estrada ulduzu Müslüm Maqomayevin adına istirahət parkının salınmasını onun yaradıcılığına olan sevgi və məhəbbətin bariz nümunəsi kimi dəyərləndirib.

Sonra ulu öndər Heydər Əliyevin Kiyev şəhərindəki abidəsinin önünə tər çiçəklər qoyulmaqla, Müslüm Maqomayev adına istirahət parkının açılışına start verilib. Parkda Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş Seyfəddin Qurbanovun müəllifi olduğu abidə kompozisiyasının üzərindən ağ örpək götürülərək Müslüm sevərlərin ixtiyarına verilib.

Açılış mərasimində Azərbaycan və Ukraynanın mədəniyyət nazirləri Əbülfəs Qarayev və Yevgeni Nişuk, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Kiyev Şəhər Dövlət Administrasiyasının rəhbərinin müavini Aleksandr Spasibko, xarici ölkələrin Ukraynadakı səfirləri, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadə, yerli KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev çıxış edərək, Müslüm Maqomayevin dünya musiqi xəzinəsinə bəxş etdiyi dəyərli töhfələrdən bəhs edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə dünyanın müxtəlif ölkələrində Müslüm Maqomayevin 75 illik yubileyi ilə bağlı silsilə tədbirlərin həyata keçirildiyini vurğulayan səfir Kiyev şəhərindədə ölməz sənətkarın adının əbədiləşdirilməsinin birbaşa Azərbaycanın dövlət başçısının tapşırığına əsasən həyata keçirildiyini vurğulayıb. Ötən il Kiyev şəhərində Azərbaycan-Ukrayna dostluq parkının inşa olunaraq Kiyev şəhər sakinlərinin ixtiyarına verildiyini diqqətə çatdıran səfir A.Xudiyev yaxın gələcəkdə Kiyevin digər mərkəzi parklarının birində dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin ucaldılacağını, orada Azərbaycan Mədəniyyət Mərkəzinin tikiləcəyini vurğulayıb. Səfir bu nəcib missiyanın həyata keçirilməsinə dəstək verən Ukrayna dövlətinə minnətdarlığını bildirib. Açılış mərasimində çıxış edən Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev, Ukraynanın mədəniyyət naziri Yevgeni Nişuk və Kiyev şəhər merinin müavini Aleksandr Spasibko, Kiyev şəhərində Müslüm Maqomayevin abidəsinin ucaldılmasını ölkələrimiz arasında dostluq münasibətlərinə söykənən mədəniyyət hadisəsi adlandırıblar. Kiyevin mərkəzində belə bir parkın açılmasının tarixi hadisə olduğunu qeyd edən nazir Ə.Qarayev bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin göstərişi ilə açılış mərasimində ölkəmizdən böyük nümayəndə heyəti iştirak edir.

"Bu park kiyev sakinləri və şəhərin qonaqları üçün gözəl istirahət məskəni olacaq. Parkda Müslüm Maqomayevin heykəli şəhərə xüsusi gözəllik verir. Müslüm Maqomayev dünya xalqlarının sevimlisi olub", deyə nazir çıxışında əlavə edib.

M.Maqomayevin Azərbaycanın dünya şöhrətli musiqiçisi, ecazkar vokal ifaçılığı ilə milyonların qəlbini fəth etdiyini vurğulayan Ukraynanın mədəniyyət naziri çıxışında deyib ki, o bir çox xalqların sarsılmaz mədəni əlaqələrinin təcəssümüdür. Y.Nişuk bildirib ki, M.Maqomayev bütün dünya mədəniyyətinə məxsus ifaçı olub. Kiyev Şəhər Dövlət Administrasiyasının rəhbərinin müavini Aleksandr Spasibko isə öz çıxışında bu cür ecazkar parkın kiyevlilərin əsl istirahət yerinə çevriləcəyinə inandığını bildirib. O qeyd edib ki, Kiyev Şəhər Dövlət Administrasiyası Azərbaycan səfirliyinin irəli sürdüyü bu cür layihələrə həmişə dəstək olmağa hazırdır. Heykəlin müəllifi tanınmış heykəltəraş, Ukraynanın Xalq rəssamı Seyfəddin Qurbanov Müslüm Maqomayev kimi dahi şəxsiyyətin abidəsinin müəllifi olduğu üçün özünü xoşbəxt saydığını bildirib.

Çıxışlardan sonra parkda məşhur müğənninin heykəlinin üzərindəki örtük götürülüb. Tədbir Azərbaycan və Ukraynanın tanınmış incəsənət xadimlərinin konserti ilə davam etdirilib. Qeyd edək ki, Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə parkın təmiri ölkəmizin "ALTE" İnşaat, sənaye və ticarət" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilib. Kiyevdə park Azərbaycan Prezidenti İlham Əliyevin Müslüm Maqomayevin 75 illik yubileyinin keçirilməsi haqqında Sərəncamından irəli gələrək həyata keçirilib. Açılış mərasimində qeyd olunub ki, Azərbaycanın Ukraynadakı səfirliyinin və Kiyev şəhər meriyasının dəstəyi ilə inşa olunmuş Müslüm Maqomayev adına istirahət parkında yerli sakinlərin istirahəti üçün geniş imkanlar yaradılıb. Azərbaycanın milli ornamentləri ilə diqqəti cəlb edən parkda nadir ağac növləri əkilib. Burada hər il Müslüm Maqomayevin xatirəsinə həsr olunmuş musiqi festivalının keçirilməsi nəzərdə tutulub.

Açılış mərasimindən sonra Kiyev Milli Konservatoriyasının binasında ölməz sənətkarın xatirəsinə həsr olunmuş təntənəli konsert keçirilib. Konsertdə Azərbaycanın, Özbəkistanın Moldovanın və Ukraynanın tanınmış mədəniyyət və incəsənət xadimləri Müslüm Maqomayevə sönməz sevgilərini onun mahnılarını ifa etməklə çatdırıblar.

**Möhsüm QƏDİROĞLU,**
**Aztv-nin Ukrayna və Şərqi Avropa bürosunun rəhbəri.**